# İMAM HÜSEYNİN ŞƏHİDLƏR GÜLÜSTANINDA...



*AĞABABA ABASOV*
*(14.03.2020-ci il*
*Şabran rayonu Uzunboyad kəndi*
*29.09.2020-ci il Füzuli rayonu).*

Ağababa Səfər oğlu Abasov 14 mart 2002-ci ildə Şabran rayonunun Uzunboyad kəndində dünyaya göz açmışdır. İlk təhsilini Uzunboyad kənd məktəbində alan Ağababa həmin məktəbi bitirdikdən sonra sənədlərini Sabirabad Dövlət Sosial-İqtisadi Kollecinə vermiş, həmin təhsil ocağında təhsilini davam etdirmişdir. Kolleci bitirən Ağababa hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətinin ilk beş ayını Ağcabədidə "N" saylı hərbi hissədə başladıqdan sonra sentyabr ayında təlimlərə çağırılmışdır. Əsgər Ağababa Abasov 27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində, xüsusilə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə kəşfiyyat qrupunun manqa komandiri kimi fəaliyyət göstərmiş, 29 sentyabr 2020-ci ildə həmin döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən yaxınlığında mərmi partlaması nəticəsində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmişdir. Torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda göstərdiyi qəhrəmanlığa görə şəhadətindən sonra Ali Baş Komandanın müvafiq fərmanına əsasən Ağababa Abasov "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimizin əziz xatirəsinə həsr etdiyim "İmam Hüseynin şəhidlər gülüstanında" şeirini böyük qürur və həvəslə təqdim edir və Allahımızdan bütün şəhidlərimizə rəhmət diləyirəm:

Mübariz yolunu davam etdirdin,
Bu amalla cəngavərə çevrildin,
Elə bil, Şəhadəti hiss etmişdin,
Qisas axdı damarında, qanında.

Düşmən at oynadırdı yurdumuzda,
Buna tab etmirdi Bozqurdumuz da,
Polad şəhid oldu Tovuzumuzda,
Bu nisgili daşıyırdın canında.

Qisas almaq var idi hər anında,
Qisas almaq ürəyində, qanında,
Qisas sözü yazılmışdı alnında,
Bu sözləri daşıyırdı sanın da.

Gün keçdi, ay ötdü və vaxtı gəldi,
Başladı bir Vətən müharibəsi.
Vətən oğlu qisası üstün bildi,
Düşmən tab etmədi, kəsildi səsi.

Manqa komandiri o, Abasovdu,
Düşmənləri "iti qovan"tək qovdu!
3 gün döyüşmək ona nəsib oldu,
Sayəsində düşmənə gör nə oldu?

O, aldı neçə şəhid qisasını,
Qoymadı ki yerdə qalsın qanları.
Durmadan məhv edirdi düşmənini,
Öldürürdü "hay" adlı "heyvanları".

3 gün sonra qara xəbəri gəldi,
Ağababa şəhidliyə yüksəldi!. .



Xəbər nə qədər qürurlu olsa da,
Səbri boğan kədər artırdı daha...
Şəhid olduğu bir anda da aldı,
Vətən oğlu Ağabala qisasını.
Şanlı Vətən əsgəri Zəfər çaldı,
Düşmən keçirtməli oldu yasını.

Neçə aydır orada uyuyursan,
Şuşadakı o ruhuna baxırsan,
Qara torpaq qərənfilin qucursan,
And yeri-Şəhidlər Xiyabanında.

Qəhrəmanımızsan, unudulmazsan,
Sən verdin Şanlı Vətənin üçün can.
Doğdu günəş Şuşaya, söküldü dan,
Xalq bayram etdi Azərbaycanında.

Sən Zəfərli bir Xarı bülbül oldun,
Peyğəmbərin bağında sünbül oldun,
Əlvan rəngli, xoş ətirli gül oldun,
Hüseynin Şəhidlər gülüstanında.

Sevindik Nəsiboğlu